# GÖZLƏNİLMƏZ GÖRÜŞ



*Qəzənfər KAZIMOV, professor*

*(Əvvəli ötən saylarımızda)*

Birinci faciə, Fərqanə də pasportlarında azərbaycanlı yazılmış bizim fəqir məhsəti türklərinin başına gələn faciə və Azərbaycanda olan qanlı yanvar, Sumqayıt, Qarabağ hadisələri, bizim torpaqlarımızın zəbt olunması, - bütün bunlar təkcə məni yox, bütün ailə üzvlərimi sarsıtdı. Biz nə etməli olduğunu anlaya bilmədik. Hadisələri götür-qoy edib, bütün krımlı qohumlar ilə birgə Krıma köçməyə qərar verdik.

Təəssüflər olsun ki, mən Krımda olan vaxt, mənim ailəm müdafiəsiz qaldı, mən bu vaxt Krımda ev tikməklə məşğul idim. Ən müdhiş gün - 14 iyun 1991-ci ildə öz mənzilimdə 17 yaşlı kiçik qızım yerli millətçi quldurlar tərəfindən evdə tək olan vaxt qətl edildi.

Bu hadisə mənim həyatımda ən böyük katastrof oldu. Qatili tapdım. 5 il gedən sonsuz-sərhədsiz istintaq işləri, məhkəmələr prosesi, 16 may 1994-cü ildə qatilin güllələnməsi ilə qurtardı.

Mən oğlum, qızım və nəvələrim xatirinə yaşamalı idim. Doktorluq müdafiəsini atdım kənara. Evimizin bütün əşyaları yanmış, qiymətli şeylər oğurlanmışdı. Qərib, başqa məkan - Krım. Məni heç kim tanımır. Heç kim iş vermir. Mənim faciəm heç kimi maraqlandırmır, heç kim «uf» demir...

Lakin yaşamaq, vuruşmaq, ayağa durmaq lazımdır. Gələcək xatirinə gecə-gündüz işləmək, işləmək, işləmək! Özümə, oğluma ev tikdim, qızımın ailəsi üçün mənzil aldım. Xanımım Dilarənin artıq qocalıb əldən düşmüş 2 bacısını və 3 qardaşını vətənlərinə gətirdim, onları mənzil ilə təmin etdim. Bu dünyadan köçüb gedənləri öz əlim ilə qəbirlərində üzlərini qibləyə çevirib, rahatladım. Qəbirlərin üstünü götürtdürdüm, abidə qoydurdum.

Allah-taala mənə verdiyi gücü, fərasəti tamam istifadə etməli idim. 1998-2003-cü illəri Ukrayna xalq deputatının ictimai köməkçisi oldum ki, köçüb gedən Krım-tatarlarına kömək edə biləm. Bu zaman ərzində Simferopol ətrafında kompakt tatar qəsəbələrində (4 qəsəbə) avadanlıq işini öz öhdəmə aldım. Qısa vaxtda bu qəsəbələrə su, elektrik çəkdim, qazlaşdırdım, telefonlaşdırdım, qəsəbələrin daxili və xarici yollarını bərpa edib, abadlaşdırdım. Bu işləri tamam edib yaşlı adamların pensiya məsələsi ilə məşğul oldum. Onlarca, yüzlərcə əlacsız pensionerlərə vəkillik edib, məhkəmələrin onların xeyrinə həllinə nail oldum. Nəticədə çoxlarının təqaüdləri 75-80 dollardan 150-200 dollara kimi artdı.

Mən etdiyim yaxşılıqları təmənnasız edirəm. Bir neçə əlacsıza öz evimin əşyalarını (paltar, qab-qacaq, elektrik əşyaları, televizor, radio, çarpayı, yorğan-döşək və s.), tikinti materialları (qapı, pəncərə, şifer və s.) verdim.

Axır vaxtlar işdən azad olduğum üçün bizim Azərbaycan-Krım icmasının işinin fəallaşmasına qoşuldum.

Son vaxtlar Krımda Azərbaycan günləri keçirdik. Ü.Hacıbəyliyə, Səməd Vurğuna, Rəşid Behbudova, Füzuliyə həsr olunmuş ədəbi-bədii gecələr, disputlar, şeir gecələri, radio və yerli televiziyada verilişlərdə iştirak etdim. Xalqımızın burada yaşayan nümayəndələri qarşısında öz sözümü, nəsihətlərimi bildirdim. Hərdənbir arxaya dönüb baxanda, keçmiş həyatımı bir lent kimi gözümün qarşısından keçirəndə görürəm ki, çox az işlər görmüşəm.



Ancaq harda yaşasam da, harada işləsəm də, mənim heç vaxt yadımdan çıxmayıb ki, mən azəri türküyəm, göy oğuzam, qarabağlıyam, soltanlıyam, ulu babalarım bəylərbəyi Əlibəyin, həm də kasıb, yersiz, mülksüz Orucun nəslindənəm. Sadəcə olaraq mən adi bir azərbaycanlıyam. Mən vətənimlə ağlamalı, vətənimlə gülməliyəm.

Doğma torpağım Azərbaycanla fəxr edib yaşamalıyam, bu Vətənin başını uca etməliyəm.

*Valeh Soltanlı (Orucov)*
*Aprel, 2007*

### OXUCUYA MÜRACİƏTİ

Ey oğul! Mənim bu yazılarım şeir deyil, «yazıdı».

Həm də mən yazmışam, özüm üçün.

Yazam-oxuyam, sözlər yadımdan çıxmasın.

Bu göndərdiklərimi - sənə göndərirəm! Sən bütünlüklə sahibsən, nə istəyirsən, et! Xoşuna gəlməyənləri və pis qarşılana bilən (həm vətəndə, həm də xaricdə - belə ki, bizim düşmənlər hər şeyə qadirdir) yazıları ya poz at, ya da ki, dəyişdir. Ən əsası, çalış ki, mətnmənа dəyişməsin. Əlbəttə, mən sənin kimi ədəbiyyatçı deyiləm, yazılarım nəzm-şeir yazı qaydalarına tabe olmaya da bilər, özün düzəlt. Bu yazıları mən 62 yaşında başlamışam, bu, çox gecdir!

Ən əsası! Sən mənim bu yazılarımı çap etsən, elə et ki, heç kimə - nə sənə, nə redaksiyaya, nə də ki mənə töhmət gətirməyinə imkan olmasın.

Mümkün olacaq kitabın həcmini özün təyin et. Əgər bu baş tutsa, mənə ən çoxu 100 nüsxə lazımdır ki, buradakı yerlilərimizə və məni tanıyanlara verəm. Əgər Əli Rza (redaksiya) lazım bilsə, sata bilərsən, mənə heç nə lazım deyil. İstifadə etsin öz idarəsi üçün. Yaxşı olardı ki, kitabxanalara, bizim yerlilərimizə, qaçqınlara paylayasınız. Mən əlimdən gələn pul-para köməkliyini edəcəm. Təəssüf ki, bütün xərclərə gücüm çatmaz. Çox yaxşı olardı ki, çap olunaydı. Özün də bura - Krıma gəlib özünlə gətirəydin Bakı-Simferopol qatarı ilə (birbaşa) yay vaxtları.

Qalmağa, yeməyə, gəzməyə hər bir şərait var. Bəzi öz kitablarını da gətirib bizim diaspora qarşısında çıxış edərdin, bir alim kimi. Bütün işini görərdin. İkimiz dərdləşərdik. Nə qədər deməli sözlər, hadisələr var. Mənim başıma gələnləri, gördüklərimi, bildiklərimi sən qələmə alsan, çox məzmunlu və dəyərli, bədii və elmi əsər olardı. Sən mən haqda çox az bilirsən (Bir məktub kimi, bu hissəni ümumən oxucuya müraciətlə başlasa da, tədricən məni nəzərdə tutmuşdur - Q.K.).

Əlahiddə, Sevil (mənim həlak olmuş qızım) haqda yazmaq lazımdır. Özün bax! Əli Rza dedi ki, o, mənim haqqımda 5 il bundan əvvəl qəzetində yazıb. Yəqin ona bu materialı əmim qızı, rəhmətlik Gülarənin (Telmanın bacısı) yeznəsi Fərmail verib, çünki 1998-ci ildə mən Bakıda olanda ona başıma gələn fəlakət haqqında danışmışdım. Mümkün olsa, o qəzet nüsxəsini mənə göndər, bu məktubu gətirən ağdamlı balası ilə, bəlkə də başqa yolla.

Rica edirəm, indiyə kimi kəsilmiş ünsiyyətimizi kəsmə. Ya qismət! Məni dindarlıqda çox qınama, mən lap körpə vaxtdan Allahımı bilirdim, ona görə də o vaxtı dinsizlərdən seçilirdim.

Mən səhhətimə görə Bakıya gələ bilmirəm. Ona görə də Səriş və Telman rəhmətə gedəndə ora gələ bilmədim. Biləsən ki, nə qədər ruhi əziyyət çəkirəm bu barədə. Daima səndən məktubla, telefonla xəbər gözləyirəm.

Səni Kramda görmək arzusu ilə yaşayıram. Bütün ailə üzvlərinə, həm də Əli Rzaya və ailəsinə, cümlə yerlilərimizə çoxlu salamlar. Allah-Taala hamınızı sağ-salamat etsin..

*Hörmətlə, Valeh*
*20.04.2007*

### YARADICILIĞINA MÜNASİBƏT

Oxucu diqqətinə təqdim olunmuş bu əsərlər Krım-Azərbaycan cəmiyyəti tərəfindən çap olunmağa layiq görülmüşdür.

Burada məqsəd xalqımızı onun vətəndən 50 ildən çox vaxt ərzində qəribliкdə yaşayan, ancaq öz ədəbi dilini, vətənə olan sevgi-məhəbbətini qoruyub-saxlayan, öz el-obasına sadiq qalan oğullarından biri ilə tanış etməkdir. Bu şəxs texnika elmləri namizədi, neftçi-mühəndis, 18 ixtiraya patent almış, 75 texniki-elmi əsər çap etdirmiş, dəfələrlə VDHXSSR-in medalları ilə təltif olunmuş, 30 ildən çox neft-qazçıxarma və maşınqayırma sənaye müəssisələrinə rəhbərlik etmiş, dəfələrlə müxtəlif sovet orqanlarına deputat seçilmiş ağsaqqal yerlimiz, soydaşımız - Valeh Lətif oğlu Orucovdur (Valeh Soltanlı).

Valeh 1937-ci ildə Cəbrayıl bölgəsinin Soltanlı kəndində anadan olmuşdur. 1960-cı ildə Azərbaycan Neft və Kimya İnstitutunun neft-mədən fakültəsini bitirdikdən sonra təyinat əsasında Orta Asiya, Özbəkistan, RSFSR və Ukraynada özünün əmək və elmi fəaliyyəti ilə məşğul olmuşdur.

Valeh Soltanlı onlarca başqa xalqların dilini mükəmməl bilməklə bərabər öz ana dilində - Qarabağ şivəsində danışmağa xələl gətirməyib, dilimizin mirvari saflığını qoruyub-saxlayıb, vətənimiz Azərbaycanın və ən böyük ulusumuz olan Turanın tarixini və ədəbiyyatını çox dərin öyrənib.

Onun dediyinə görə, 62 yaşına kimi əlinə qələm alıb ancaq texniki əsərlər yazıb çap etdirib, nə nəsr, nə də ki, nəzm şəklində bədii əsərlər yazmayıb.

1998-ci ildən sonra Vətənimizin Qarabağ faciəsi təəssüratı və öz şəxsi faciəsinin iztirabları ilə əlaqədar olaraq, Valeh qəlbindəki ağrıları, iztirabları, doğma yurdu Azərbaycana sonsuz və tükənməz məhəbbətini, ürək ağrılarını nəzm və nəsr şəklində qələmə almalı olub.

Valeh dəqiq bilir ki, 50 il öz xalqı arasında yaşamadığı üçün 62 yaşdan sonra onun əsərlərində bədii və ədəbi qüsurlar ola bilər. O, şairlik iddiasında deyil və öz yazılarını elə sadəcə olaraq «yazı» adlandırır, oxucunu qabaqdan xəbərdar edir: «Mən şair deyiləm, dostlar, bilin ki...»

Onun yazılarının sayı artıq yüzlərcədir. Bu əsərlərdə qələbəyə çağırış, vətənpərvərlik, vətəndaşlıq, idrak, nəsihət, atalar sözləri əsas yer tutur.

Biz - vətəndən xaricdə yaşayan azərilər Valeh kimiləri dinləyəndə qəlbimizdə qürur, vətən sevgisi güclənir, doğma torpağımıza bağlılıq, Azərbaycan uğrunda hər şeyə hazır olmaq ruhunda tərbiyə olunuruq.

Krım-Azərbaycan milli cəmiyyətinin rəhbərliyinin fikrincə, bu insanın yazıları, tövsiyə etdiyi idraki sözlər, nəsihətləri bütün Azərbaycan gəncləri üçün faydalıdır. Onun yazıları xalqımız üçün mənəvi, ruhverici bir silah ola bilər: "Biz, Krımda yaşayan azərbaycanlılar demək istəyirik ki, xalqımızın vətəndən çox-çox uzaqlarda fəaliyyət göstərən işgüzar-biznes adamlarından başqa, mütəfəkkir-alim, ad-san qazanmış, vətəni Azərbaycanı özgə dövlətlərdə, ölkələrdə təmsil edən Valeh Soltanlı kimi yüzlərlə soydaşlarımız var".

Valeh Soltanlı kimi oğullarını Azərbaycan xalqı tanımalı, unutmamalıdır.

Rəhim Hümbətov,
***Ukrayna Jurnalist-yazıçılar İttifaqının üzvü, Krım-Azərbaycan cəmiyyətinin sədri.***

